

# Qocaman kamança ifaçısı

**50 ildən çoxdur ki, radio dalğalarından, televiziya ekranlarından, dünya ölkələrinin mötəbər konsert salonlarından eşidilən ecazkar bir ifa milliyyətindən asılı olmayaraq bütün tamaşaçı və dinləyici qəlbini ovsunlayıb.**

Deyirlər ziyalılıq kamilliyin, aqilliyin ən uca zirvəsidir. Əlbəttə, insanın ziyalı olub-olmamasını tarix və xalq müəyyənləşdirir. Sənətinə, insanlığına hörmət etdiyim musiqiçi-pedaqoq ziyalılarımızdan biri də Əlibəndə MəmmədHənifə oğlu Əliyevdir.

Sadəliyi, düzgünlüyü, musiqiyə olan hədsiz marağı ona böyük hörmət qazandırıb.

Əlibəndə Əliyev kamança ifaçılığı sənətində öz dəstixətti olan tanınmış pedaqoqlardan biridir. Əlibəndə MəmmədHənifə oğlu Əliyev 2 mart 1948-ci ildə Bakının Buzovna qəsəbəsində anadan olub. Hələ uşaqlıqdan musiqiyə böyük maraq göstərmiş, elə bu səbəbdən də qəsəbədəki 10 saylı Uşaq musiqi məktəbinə imtahan verərək qəbul olur.

1960-1963-cü illərdə ilk müəllimi musiqiçi pedaqoq Validə Babayeva olmuşdur, 1963-cü ildə orta məktəbi və musiqi məktəbinin beş illik proqramını başa vuraraq A.Zeynallı adına orta ixtisas musiqi məktəbinə daxil olur.

1967-ci ildə "kamança" ixtisası üzrə məktəbi bitirir.

O, 1971-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Mədəni-maarif fakültəsinə daxil olur və 1976-cı ildə institutu müvəffəqiyyətlə başa vurur.

Musiqiçi kimi əmək fəaliyyətinə 1964-cü ildən başlayır.

1964-1966-cı illərdə 10 saylı musiqi məktəbində müəllim, 1966-1975-ci illərdə 19 saylı musiqi məktəbində şöbə müdiri, 1975-1991-ci illərdə dərs hissə müdiri, 1997-2004-cü illərdə 35 saylı 11 illik musiqi məktəbində şöbə müdiri vəzifəsində işləmişdir.

1967-ci ildə Moskvanın qurultaylar sarayında "Milis"in 50 illiyindəki möhtəşəm tədbirdə Daxili İşlər Nazirliyinin nəzdindəki ansamblda çıxış etmişdir.

Əlibəndə müəllim ilk dəfə Yusif Heydərovun bədii rəhbərliyi ilə "Təranə" Gənclik xalq çalğı alətləri ansamblında çıxış etmişdir. Respublikamızın ən tanınmış xanəndələri, müğənniləri Zeynəb Xanlarova, Sara Qədimova, Tükəzban İsmayılova, Şövkət Ələkbərova, Elmira Rəhimova, Rübabə Muradova, Hacıbaba Hüseynov, Əlibaba Məmmədov, Arif Babayev, Ağababa Novruzov, Mürşüd Abbasov, Canəli Əkbərov, Ağaxan Abdullayev, Məmmədbağır Bağırzadə, Kəmalə Rəhimli, Mətanət İsgəndərli və bir çox başqaların onun müşaiyəti ilə oxumuşlar.

1992-1993-cü illərdə Türkiyədə qastrol səfərində xalq artisti Elmira Rəhimova, əməkdar artistlər Kəmalə Rəhimli, Mətanət İsgəndərlini kamança aləti ilə müşaiyət etmişdir.

1995-ci ildə Almaniyada, 1999-cu ildə İranın Təbriz şəhərində, 2002-ci ildə Tunis şəhərində qastrol səfərlərində çıxış etmişdir.

1967-1975-ci illərdə xalq artisti Əhməd Bakıxanovun bədii rəhbərliyi ilə xalq çalğı alətləri ansamblında, Xalq artisti Əliağa Quliyevin rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında, sonralar "Dilkəş" instrumental ansamblında çıxışlar etmişdir. Onu da qeyd edim ki, mərhum ustad sənətkarımız Məmmədbağır Bağırzadəni ilk dəfə ansambla Əlibəndə müəllim dəvət etmişdir.

Məmmədbağır müəllim həmişə deyirdi ki, Buzovna kəndində virtioz kamança ifaçısı varsa, o da Əlibəndə Əliyevdir.

Əlibəndə müəllim hal-hazırda 4 saylı Uşaq İncəsənət Məktəbində müəllim işləyir. Musiqi sahəsində çalışan neçə-neçə tanınmış musiqiçilər Əlibəndə müəllimin yetirmələridir. Bunlardan Arif Əsədullayev, Mirnazim Əsədullayev, Zeynəb Əhədova, Arif Abdullayev, Ruhan Quliyev, Füzuli Rəhimov, Malik Əliyev və başqalarını misal göstərmək olar.

Keçən əsrdə Azərbaycanda kamançanın Hafiz Mirzəliyev, İsmayıl Talışınski, Qılman Salahov, Tələt Bakıxanov, Mütəllim Novruzov, Elman Bədəlov, Ədalət Vəzirov kimi məşhurifaçıları olmuşdur. Bu gün Şəfiqə Eyvazova, Əlibəndə Əliyev, Fəxraddin Dadaşov, Ağacəbrayıl Abasəliyev, Arif Əsədullayev, Mirnazim Əsədullayev, Elnur Əhmədov, Elşən Mansurov, İsmayıl Həmidov və başqaları mahir kaman ustaları kimi tanınırlar.

**Əlbəttə, xalq artisti, mərhum kamança ifaçısı, ustad sənətkar Habil Əliyevin kaman ifaçılığında xüsusi yeri vardır. Bu gün kamança deyəndə ilk növbədə göz önündə Habil Əliyev, Habil Əliyev dedikdə isə kamança canlanır.**

Əlibəndə müəllimin keçdiyi ömür yoluna nəzər saldıqda onun necə mənalı və şərəfli bir yol keçdiyinin şahidi olursan.

Musiqimizin təbliğindəki xidmətlərinə görə Əlibəndə Əliyev Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı tərəfindən "Ustad sənətkar" fəxri adına layiq görülüb.

Hörmətli Əlbəndə müəllim! Sizi 75 illiyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, uzun ömür, cansağlığı, musiqimizin təbliğində müvəffəqiyyətlər arzulayıram.

***Elşad Dağlı***
***"Cabir Novruz" Mədəniyyət Fondu mətbuat xidmətinin rəhbəri, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Bakı Xəbər .- 2023.- 3 mart.- S.15.